Ədəbiyyat qəzeti

14 13 noyabr 2021-ci il

# Musa URUD - 60



Hörmətli Musa Urud!

Sizi - tanınmış şair və ictimai-siyasi xadimi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1961-ci il noyabrın 25-də Qərbi Azərbaycanın Zəngəzur bölgəsinin Sisyan rayonunun Urud kəndində anadan olmuş, burada orta məktəbi qızıl medalla bitirmisiniz.

Sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil almısınız. Tibb üzrə fəlsəfə doktoru, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Fəxri Professoru, ikinci, üçüncü, dördüncü, beşinci və altıncı çağırış Milli Məclisin üzvüsünüz.

Əmək fəaliyyətinə Gəncə şəhərində başlamış, Gəncədə və Bakıda həkim, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində şöbə müdiri, idarə rəisi vəzifələrində çalışmısınız.

1996-cı ildən Yeni Azərbaycan Partiyasının üzvüsünüz. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü (1999-2021-ci illər) olmuş, partiyanın 7-ci qurultayınada (05 mart 2021) YAP İdarə Heyətinin üzvü seçilmisiniz.

Siz 2000-ci ildə YAP proporsional siyahısı ilə, 2005, 2010, 2015 və 2020-ci illərdə isə 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmisiniz.

Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri və Milli Məclis yanında Toponimiya Komissiyasının üzvüsünüz. Eyni zamanda Azərbaycan-Qırğızstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Türkiyə, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Litva, Azərbaycan-Estoniya, Azərbaycan-Çexiya, Azərbaycan-Rumıniya, Azərbaycan-Pakistan parlamentlər arası əlaqələr üzrə işçi qruplarının üzvüsünüz.

Siz Milli Məclisi beynəlxalq təşkilatlarda layiqli təmsil edən millət vəkilisiniz. O, 2000-2005-ci illərdə ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü olmuş, 2005-ci ildən hal-hazıradək isə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüsünüz. Bu nüfuzlu Beynəlxalq təşkilatda Komitə sədri (2013-2015) və Vitse-Prezident vəzifələrinədək yüksəlmisiniz.

Hal-hazırda isə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında mədəniyyət, təhsil və sosial məsələlər Komitəsinin sədrisiniz.

Siz əmək və sosial müdafiə, səhiyyə qanunvericiliyi sahəsində nüfuzlu ekspert kimi tanınırsınız. 14 Qanun hazırlanmasında işçi qrupunun rəhbəri olmuş, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi təklifləri ilə vaxtaşırı Milli Məclisdə çıxışlar edirsiniz.

1994-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1998-ci ildən isə Birliyin İdarə heyətinin üzvüsünüz. Ədəbi və publisist fəaliyyətinizə görə 1998-ci ildə Prezident təqaüdünə layiq görülmüsünüz. "Nizami Aydın", "Araz", "Yusif Məmmədəliyev", "Şahmar Əkbərzadə" ədəbi mükafatlar laureatıdır. 19 kitabın və 150-dən çox məqalənin müəllifisiniz. Əsərləriniz rus, türk, ingilis, fransız, gürcü dillərinə tərcümə olunmuşdur. 6 kitabınız, 135 məqaləniz, müsahibə, televiziya və radio çıxışlarınız bilavasitə "erməni məsələsi" və Ermənistan-Azərbaycan münaqişəsinə həsr olunmuşdur.

Beynəlxalq sahədə ictimai-siyasi fəaliyyətinizə görə BMT-nin 1-ci dərəcəli "Hippokrat" Ordeni və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının "Gümüş mədalı" ilə təltif edilmisiniz.

Hörmətli Musa müəllim!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**